**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**VÜQAR BƏXTİYAR oğlu HÜMBƏTOV**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ TARİXİ MÖVZULU XOR ƏSƏRLƏRİ

**6213.01 – Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2017**

*Dissertasiya işi Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **Gülnaz Abutalıb qızı Abdullazadə**
Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, fəlsəfə üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Cəmilə İsmayıl qızı Həsənova**
sənətşünaslıq üzrə elmlər doktoru, dosent

**Mələk İsmayıl qızı Vəlizadə**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrası.

Müdafiə "___" may 2017-ci ildə saat 12:00da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ aprel 2017-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent: **Həbibə Vaqif qızı Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Özündə birlik, kollektivçilik ideyalarını daşıyan xor sənəti bəstəkar yaradıcılığında ən müxtəlif janr və formalarda ifadə olunmuşdur. Həm müstəqil, həm də iri formalı əsərlərin tərkibində yer alan xor musiqisi əsas etibarilə xalqın, kütlənin, kollektivin ideyalarını, istək və arzularını, məqsəd və ideyasını tərənnüm etmək üçün istifadə olunmuşdur. Xor ifaçılığında əsas mahiyyət daşıyan kollektiv ifa bu cəhətlərin təcəssüm olunmasında parlaq ifadə vasitəsi kimi çıxış edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xor musiqisinə olan maraq müxtəlif janrlı musiqi əsərlərində təzahür edir. Buraya opera, musiqili komediya kimi sintetik janrlarla yanaşı, oratoriya, kantata kimi xor janrları, eləcə də müxtəlif tərkibli xor əsərləri daxildir. Bu əsərlərdə bəstəkar ən müxtəlif mövzuları, ümumbəşəri və ya şəxsi ideyaları, tarixi hadisələri, azadlıq, müstəqillik uğrunda aparılan mübarizəni, ümumxalq kədəri və ya sevincini məhz xorun vasitəsilə ifadə etməyə nail olmuşdur. Xor sənəti Azərbaycan klassik bəstəkar yaradıcılığında XX əsrin əvvəllərində təşəkkül tapmasına baxmayaraq, güclü inkişaf yolu keçmişdir. Xor musiqisinin parlaq nümunələri operaların tərkibində yer almaqla yanaşı, müxtəlif həcmli janrlarda təcəssüm olunmuşdur. Müxtəlif mövzulu oratoriya və kantatalar xor repertuarının ən maraqlı və peşəkar nümunələrlə zənginləşməsinə xidmət etmişdir.

Klassik musiqi janrlarında xorun istifadəsi müxtəlif üsullarla həyata keçirilir. Burada oratoriya, kantata kimi xor janrları ilə yanaşı, simfonik janrların tərkibində xorun istifadəsi nəzərdə tutulur. Məlumdur ki, xorun simfonik janrın daxilində istifadə olunması ilk dəfə alman bəstəkarı L.V.Bethoven tərəfindən həyata keçirilmişdir. Lakin XX əsrin ikinci yarısından etibarən vokal və simfonik musiqinin vəhdəti yenidən gündəmə gəlmiş və bəstəkar yaradıcılığında bir-birindən rəngarəng və müxtəlif əsərlərin yaranmasına gətirib çıxarmışdır. Bir çox bəstəkarlar müxtəlif janrlı simfonik əsərlərdə bədii ideya xəttinin gücləndirilməsi üçün məhz xordan əsas ifadə vasitəsi kimi istifadə etmişdir. Nəticədə vokal-simfonik əsərlər, eləcə də daxilində xorun da iştirak etdiyi simfoniyalar, simfonik poemalar, ballada və müxtəlif miniatürlər meydana gəlmişdir. Belə əsərlərin yaranmasına təkan verən əsas səbəblərdən biri kimi qeyd olunan dövrdə milli özünüdərk, folklor, xalq musiqisi, adət-ənənələrə yenidən qayıdış, eləcə də baş verən ictimai-siyasi hadisələrin yaratdığı əhval-ruhiyyə rol oynamışdır. Nəticədə yaranan əsərlərin böyük əksəriyyəti məhz bu səpkidə mövzuları əhatə edir.

Bu tendensiya öz ifadəsini Azərbaycan musiqisində də tapmışdır. XX əsrin sonlarında Azərbaycanda baş verən hadisələr, xalqın təfəkküründə milli ruhun oyanması, azadlıq uğrunda mübarizənin güclənməsi, gənc nəslin tarixi keçmişə, milli adət - ənənələrə qayıdış cəhdi incəsənətin müxtəlif sahələrində təzahür etmişdir. Bu dövrdə yaranan xor əsərlərində məhz qəhrəmanlıq, vətənpərvərlik, mübarizə ruhlu mövzular üstünlük təşkil edir. Təqdim olunmuş dissertasiya işinin mövzusu bu tip əsərlərin təhlilinə həsr olunmuşdur.

Dissertasiya işində müstəqillik dövründə yaranmış tarixi mövzulu əsərlər təqdim olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının tarixində mühüm əhəmiyyət daşıyan müstəqilliyin əldə olunması və bu dövrdə yaşanan müxtəlif ictimai-siyasi hadisələr öz ifadəsini incəsənətin müxtəlif sahələrində tapmışdır. Bəstəkar yaradıcılığında bu dövrdə baş verən müxtəlif hadisələr, xalqın həyatında əhəmiyyətli rol oynayan milli qəhrəmanlar, tarixi şəxsiyyətlər, azadlıq uğrunda aparılan mübarizədə baş verən qanlı hadisələr klassik əsərlərin mövzusuna çevrilmişdir. XX əsrin 80-ci illərində Qarabağda yaşanan qanlı hadisələr, torpaqların erməni qəsbkarları tərəfindən işğal olunması, xalqın yaşadığı ağır köçkün həyatı, torpaqlar uğrunda qəhrəman oğulların şəhid olması bəstəkar yaradıcılığında müxtəlif janrlı əsərlərin mövzusuna çevrilmişdir. Eləcə də XX əsrin sonlarında xalqın azadlıq uğrunda apardığı mübarizə, ölkənin milli lideri, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bağlı yaşanan tarixi-siyasi hadisələr və onun parlaq obrazı təhlilə cəlb etdiyimiz bir sıra əsərlərdə tərənnüm olunmuşdur.

Dissertasiya işində 1990-cı ildə Azərbaycanda baş verən 20 yanvar hadisələri də bu əsərlərdə öz əksini tapmışdır. O.Kazıminin "Şəhidlər" simfoniyası, R.Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması, M.Babayevin "Ağlama torpağım, ağlama" oratoriyası, R.Qədimovanın "Sarı gəlin" xor və orkestr üçün balladası bu qəbildən olan əsərlərdəndir. Milli maraqların qorunması, dövlətçilik və müstəqillik ideyalarının möhkəmlənməsi, xalqın vətənpərvərlik hissinin gücləndilirməsində mühüm əhəmiyyət kəsb edən bu əsərlərin tədqiqat obyekti kimi seçilməsi mövzunun aktuallığını şərtləndirən əsas göstəricidir.

Qeyd etmək lazımdır ki, dissertasiya işinə cəlb olunan əsərlərin böyük əksəriyyəti ilk dəfə təhlil olunur və musiqişünaslıq elmi üçün aktuallıq kəsb edir. Burada müxtəlif janrlı əsərlərdə tarixi mövzuların bədii-estetik mahiyyətinin açılmasında xordan istifadə üsulları nəzəri təhlilin əsas aspektini təşkil edir. Əsərlərin bu aspektdə təhlili ilk dəfə aparıldığı üçün, mövzunun aktuallığını göstərən əsas amillərdən biri hesab olunur.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiya işinin əsas tədqiqat obyektini klassik musiqi əsərləri təşkil edir və bu baxımdan tədqiqatın ərsəyə gəlməsində bəstəkar yaradıcılığı ilə bağlı mövcud elmi ədəbiyyat əsas mənbə rolunu oynamışdır. Bu baxımdan V.Adıgözəlov, R.Mustafayev, O.Rəcəbov, O.Kazımi, E.Dadaşova, S.Fərəcov, C.Abbasov, Y.İmanov, F.Cavadov, R.Qədimova, L.Vaynşteyn kimi bəstəkarların yaradıcılığı ilə bağlı elmi tədqiqat işləri və məqalələrə müraciət olunmuşdur. İ.Əfəndiyevanın V.Adıgözəlovun yaradıcılığına həsr olunmuş "Vasif Adıgözəlov" monoqrafiyası[1], Z.Qafarovanın "Ramiz Mustafayev" monoqrafiyası[2], R.İmanovun "Oqtay Rəcəbov"[3] , G.İsmayılovanın "Mobil Babayev", N.Dadaşovanın "Cəlal Abbasov" [4], Z.Dadaşzadənin "Elnarə Dadaşova" [5] braşürləri bəstəkarların əsərləri və fərdi üslubu haqqında təsəvvür yaratmaq üçün mənbə rolunu oynamışdır.

Təhlilə cəlb olunmuş əsərlərdən bir qismi müxtəlif tədqiqatlarda araşdırılmışdır. Bu baxımdan S.T.Rzayevanın V.Adıgözəlovun oratoriyalarına həsr olunmuş "V.Adıgözəlovun triptixi: "Qarabağ şikəstəsi", "Çanaqqala", Qəm karvanı" oratoriyaları (janrın təfsirində ənənə və müasirlik)" dissertasiya işini [6] qeyd etmək lazımdır. Müəllif tədqiqat işində bəstəkarın oratoriya janrına müraciətini, zamanla ayaqlaşan və janrın hüdudlarını aşan obraz-ideya, məzmun və forma, musiqidə baş verən yeni təmayüllərdən irəli gələn konsepti baxımdan araşdıraraq maraqlı nəticələr əldə etmişdir.

Təhlilə cəlb olunmuş əsərlər xorla bağlı olduğu üçün Nailə Mirzəyeva[7], Sailə Ağayeva[8], Allahverdi Xələfov, Leyla Məmmədova-Fərəcova[9], Mələk Vəlizadə, Yulizana Kuxmazova və başqa xormeysterlərin elmi tədqiqatlarına müraciət olunmuşdur. Bu tədqiqatlarda xor sənəti müxtəlif aspektlərdən araşdırılmış, Azərbaycanda xor sənətinin yaranma və inkişaf yolları, xor dirijorluğunun əsasları, o cümlədən xorun bəstəkar yaradıcılığında mövqeyi üzə çıxarılmışdır.

---

[1] Эфендиева И.М. Васиф Адыгезалов. Монография. Б: Шур, 1999.
[2] Qafarova Z.H. Ramiz Mustafayev.B:Səda, 2009.
[3] İmanov R.A. Oqtay Rəcəbov. B: Şərq-Qərb, 2014.
[4] Dadaşova N. İ. Cəlal Abbasov. B: Şərq-Qərb, 2014.
[5] Dadaşzadə.Z. H. Elnarə Dadaşova. B: Şərq-Qərb, 2015.
[6] Rzayeva S.T. "V.Adıgözəlovun triptixi: "Qarabağ şikəstəsi", "Çanaqqala", Qəm karvanı" oratoriyaları (janrın təfsirində ənənə və müasirlik)". sən.üz.fəl.dok. dis. B: 2005.
[7] Mirzəyeva N.A. Xorşünaslıq. Bakı, 2007.
[8] Агаева С.Г. Особенности национального мышления в хоровом творчестве азербайджанских композиторов. Диссерт.канд. Баку: 1995.
[9] Мамедова Л.М. Хоровая культура Азербайджана. Б: Адилоглы, 2010.

Dissertasiya işində yer alan ayrı-ayrı əsərlər haqqında müxtəlif müəlliflərin əsərlərini də qeyd etmək lazımdır. Xüsusilə simfoniyaların təhlili zamanı Z.Dadaşzadənin "Simfoniyanın fəzası" [10] , F.Əliyevanın "XX əsrin ikinci yarısında Azərbaycan musiqisinin yeni inkişaf yolları" [11] elmi-tədqiqat əsərləri, eləcə də rus musiqişünasları İ.Lavrentyeva, A.Aranovski, İ.Sollertinski, Y.Xolopov və başqalarının mövzu ilə bağlı konseptual məqalələrinə istinad etmişik.

Qeyd etmək lazımdır ki, dissertasiya işinə cəlb etdiyimiz bir çox əsərlər ilk dəfə təhlil olunduğu üçün onlar haqqında hər hansı elmi tədqiqat aparılmamışdır. Bu əsərlərin təhlili zamanı bəstəkar haqqında mövcud elmi ədəbiyyat istinad mənbəyi kimi dəyərləndirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müstəqillik dövründə yaranmış tarixi mövzulu xor əsərlərini janr və forma, eləcə də musiqi dilinin xüsusiyyətləri, əsərlərin həsr olunduğu tarixi mövzuların müxtəlif mahiyyəti baxımından təhlil etməkdir. Təhlilə cəlb olunmuş xor əsərləri müxtəlif musiqi janrlarını əhatə etməklə yanaşı, vokal və simfonik janrların vəhdətini özündə ifadə edir. Bu cəhəti nəzərə alaraq təhlil zamanı xorun müxtəlif janrlarda tətbiqi üsullarını aşkara çıxarmaq da əsas məqsəd kimi çıxış edir. Bu məqsədləri həyata keçirmək üçün aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1) Dissertasiya işinə cəlb olunmuş xor əsərlərin janr əlaqələrini araşdırmaq və müxtəlif janrlarda xorun istifadə üsullarını müəyyənləşdirmək;

2) Vokal və simfonik janrların vəhdət təşkil etdiyi əsərlərin janr və forma əlaqələrini müəyyənləşdirmək;

3) İri həcmli vokal-simfonik əsərlədə xorun istifadə üsullarını aşkara çıxarmaq və bədii obrazın ifadə olunmasında rolunu müəyyənləşdirmək;

4) Təhlilə cəlb olunmuş kiçik formalı xor əsərlərinin nəzəri təhlilini aparmaq və tarixi hadisələrin təcəssüm olunmasında xorun rolunu aşkara çıxarmaq;

5) Tarixi şəxsiyyətlərə həsr olunmuş xor əsərlərinin janr və forma xüsusiyyətləri, o cümlədən bədii obrazın tərənnümündə xorun tətbiqi üsullarını aşkara çıxarmaq.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində tədqiqat obyekti kimi seçilən əsərlərin əsas hissəsi ilk dəfə təhlilə cəlb olunmuşdur. Bu əsərlərin təhlilində göz önündə tutulan əsas aspektlərdən biri vokal və simfonik

---

[10] Dadaşzadə Z. Simfoniyanın fəzası. B.: Elm, 1999.

[11] Əliyeva F.Ş. XX əsrin ikinci yarısında Azərbaycan musiqisinin yeni inkişaf yolları. B.: Elm, 2012.

janrların vəhdəti nəticəsində yaranan əsərlərin janr və forma əlaqələrinin aşkara çıxarılmasıdır. Bu istiqamətdə təhlil ilk dəfə olaraq təqdim olunan dissertasiya işində aparıldığı üçün, əldə olunan nəticələr elmi yenilik kimi qiymətləndirilə bilər. Beləliklə, aparılan təhlillər nəticəsində əldə olunan müddəalar dissertasiya işinin elmi yenilikləri sayıla bilər:

- Təhlilə cəlb olunan əsərlərin əksər hissəsi ilk dəfə olaraq təqdim olunan dissertasiya işində araşdırıldığı üçün aparılan təhlilin nəticələri işin elmi yeniliyi hesab olunur;
- İlk dəfə olaraq XX əsrin ikinci yarısında Azərbaycan bəstəkarlarının yaradıcılığında yer alan vokal-simfonik əsərlər janrların sintezi baxımından təhlilə cəlb olunmuşdur;
- Müstəqillik dövründə yaranan əsərlərin təhlili aparılır və bu sırada tarixi şəxsiyyətlərə və hadisələrə, milli qəhrəmanlara həsr olunmuş əsərlər ilk dəfə yer almışdır;
- Dissertasiya işinə cəlb olunmuş vokal-simfonik əsərlərin təhlili zamanı ilk dəfə olaraq sintezin metodları, hibrid janrlar və xordan istifadə məsələləri araşdırılır.

Bu baxımdan aparılan təhlil nəticəsində əldə olunan nəticələr dissertasiya işinin elmi yeniliyi hesab olunur.

**Tədqiqatın metodu və metodologiyası.** Dissertasiya işində nəzəri və müqayisəli təhlil metodundan istifadə olunmuşdur. Tədqiqata cəlb olunan əsərlərin janr və forma xüsusiyyətləri, vokal və simfonik janrların vəhdətindən doğan orijinal xüsusiyyətlər, eləcə də iri və kiçik formalı əsərlərin məzmun və forma əlaqələri nəzəri metodla təhlil olunmuşdur. Təhlil olunan əsərlərin hər birində xorun iştirak etməsi, bu əsərlərdə xordan istifadə üsulları, eləcə də bədii obrazın, məzmunun ifadəsində xorun rolu və mahiyyəti müqayisəli şəkildə araşdırılmışdır. Eləcə də musiqişünaslığın ümumi nəzəri prinsipləri, Azərbaycan, həmçinin xarici ölkə musiqişünaslarının tədqiqatlarında işlənmiş elmi-nəzəri konsepsiyalar dissertasiyanın metodoloji əsasını təşkil edir. Beləki: xor musiqi əsərlərin janr, forma, musiqi dili, ritm, lad-intonasiya, ifaçılıq üslubu və s. baxımından təhlil olunarkən Üzeyir Hacıbəyli, Məmmədsaleh İsmayılov, Eduard Novruzov, Leyla Məmmədova-Fərəcova eləcə də görkəmli rus tədqiqatçıları B.V.Asafyev, E.E.Alekseyev, V.Belyayev, V.Vinoqradov, L.A.Mazel, İ.V.Sposobin, Y.N.Tülin və başqalarının nəzəri müddəalarından istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müstəqillik dövründə yaranan tarixi mövzulu xor əsərləri, predmetini isə həmin əsərlərin təhlili təşkil edir.

**Tədqiqatın materialını** XX əsrin sonu və XXI əsrin əvvəllərində Azərbaycan bəstəkarlarının tarixi mövzulu xor əsərləri təşkil edir. O cümlədən, V.Adıgözəlovun "Qarabağ şikəstəsi", "Qəm karvanı" və "Çanaqqala" oratoriyaları, O.Rəcəbovun "Heydər" oratoriyası, "Çingiz" simfoniya-rekviyemi, M.Babayevin "Ağlama torpağım, ağlama" oratoriyası, R.Qədimovanın "Sarı gəlin" xor və orkestr üçün balladası, R.Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması, O.Kazıminin "Şəhidlər" simfoniyası, E.Dadaşovanın "Alqış qeyrətinizə", F.Cavadovun "Qara yanvar", L.Vaynşteynin "Sənin yazın gələr", A.Ağasıyevin "Bu qəm sənə sığmaz dünya", S.Fərəcovun "Vətən dara düşəndə", V.Allahverdiyevin "Azərbaycan torpağıyam", R.Əliyevin "Azadlığa gedən yollar" xor miniatürləri tədqiqat işində bilavasitə təhlil olunmuşdur.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Dissertasiya işində aparılan təhlillər musiqi tarixinin müəyyən mərhələsini təşkil edən əsərləri əhatə edir və bu səpgidə yeni tədqiqatlar üçün elmi mənbə rolunu oynaya bilər. Bu baxımdan dissertasiya işinin əsas müddəa və nəticələrindən respublikanın ali musiqi təhsili ocaqlarının musiqi fakültələrində "Musiqi tarixi", "Musiqi əsərlərinin təhlili" kimi fənlərin tədrisində bir mənbə kimi istifadə etmək olar. Təhlil zamanı toxunulan əsas aspektlər və əldə olunan nəticələr gələcək tədqiqatlar üçün perspektiv rolunu oynaya bilər və burada əksini tapan məlumat və materiallardan yeni elmi tədqiqatların araşdırılması zamanı mənbə kimi istifadə etmək olar.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının «Musiqi tarixi» kafedrasında yerinə yetirilmiş və müzakirəyə təqdim olunmuşdur. Dissertasiya işinin əsas müddəaları müəllifin elmi məqalələri və məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat, notoqrafiya və saytoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I fəsli "Tarixi mövzulara həsr olunmuş xor əsərlərinin janr xüsusiyyətləri"** adlanır. Bu fəsil **iki** yarımfəsildən ibarətdir. **1.1. "Müstəqillik dövrünün ilk çağlarında yaranmış tarixi mövzulu xor əsərlərinin forma və janr əlaqələri"** adlanır. Burada təhlilə cəlb olunmuş bir sıra əsərlərin timsalında Azərbaycan bəstəkarlarının yaradıcılığında vokal musiqinin daxil olduğu simfonik əsərlərin janr və forma xüsusiyyətləri araşdırılır. Sintetik janrların təşəkkül tapdığı tarixi mərhələlər və bu

janrların milli incəsənətdə təcəssümünün əsas cəhətləri öyrənilir. Xor musiqisi Azərbaycan bəstəkar yaradıcılığında təşəkkül tapan janrlar sırasında geniş yer tutur. Kollektiv ifaçılığın xalq musiqisində az yer tutmasına baxmayaraq, klassik xor əsərlərinin tamaşaçı tərəfindən böyük rəğbət qazanması bu sahədə çox sayda əsərlərin yaranmasına təkan vermişdir. Xor musiqisinin ilk nümunələri opera janrının daxilində yer almışdır. Bu janrın ilk nümunəsini yaratmış böyük bəstəkar Ü.Hacıbəyli "Leyli və Məcnun" operasına bir sıra xor nümunələri daxil etmiş və bununla da Azərbaycan musiqisində bu musiqinin ən nəfis örnəyini yaratmışdır. Operada yer alan "Şəbi-hicran" xoru ilk çoxsəsli nümunə kimi təqdim olunmuşdur. Daha sonra xor musiqisi operalarla yanaşı, müstəqil musiqi janrları vasitəsilə də inkişaf etdirilmişdir. Bu sahədə fəal iştirak edən Azərbaycan bəstəkarları milli musiqi janrlarından bəhrələnərək müxtəlif janrlı xor əsərləri yaratmaqla bu sənətin inkişafına təkan vermişlər.

Zamanla opera janrı ilə yanaşı xor sənətinin də inkişaf etməsi bu sahədə yazılan əsərlərin zənginliyini, mürəkkəbliyini və rəngarəngliyini artırdı. Səhnə əsərləri ilə yanaşı müstəqil xor əsərlərinin də yaranması isə xor kollektivlərinin repertuarını zənginləşdirməklə yanaşı, peşəkar ifaçılıq sənəti qarşısında da müəyyən tələblər qoymuş oldu. Beləliklə xor sənəti həm bəstəkar yaradıcılığında, həm də ifaçılıq sahəsində təkamül prosesi keçmiş oldu.

Dissertasiya işində tədqiq etdiyimiz dövrü xor sənətinin inkişafında müasir mərhələ kimi qiymətləndirmək olar. Bir qədər geniş yanaşsaq bu mərhələ XX əsrin 60-70-ci illərindən başlanır. Məhz bu illərdə xor (vokal) simfonik janrlarla birləşərək vokal-simfonik janrların yaranması ilə səciyyələnir. Qeyd etmək lazımdır ki, bu janrda yazılmış əsərlər elmi tədqiqatlarda əsas etibarilə simfonik musiqi sahəsində araşdırılmışdır. Lakin onların daxilində vokalın iştirakı, xüsusilə xorun əlavə olunması və bədii məzmunun təcəssümündə oynadığı rol ayrıca problem kimi tədqiq olunmamışdır. Vokal və simfonik musiqinin qarşılıqlı münasibəti, bir janr daxilində vəhdəti yeni təcrübə olmasa da, tədqiqata cəlb edilən əsərlərin mahiyyəti etibarilə aktuallıq kəsb edir. Belə ki, bu əsərlərdə xorun iştirakı məhz yarandığı dövr və əhatə etdiyi mövzu dairəsi ilə birbaşa bağlıdır.

Xorun yenidən klassik janrların tərkibində iştirak etməsi dövrün səciyyəvi cəhətləri ilə bağlı olmaqla yanaşı, bu sənətin inkişafında və yeni məna kəsb etməsində bir mərhələ kimi qiymətləndirilə bilər. Bu dövrdə xor sənətinə münasibət milli mədəniyyətin, musiqi incəsənətinin təbliğində oynadığı rol baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. Burada əlbəttə ki, milli birlik, xalqın vahid bayraq altında birləşməsini tərənnüm edən əsərlərin

yaranması xor repertuarının yenilənməsi və zənginləşməsi ilə nəticələnmişdir. Yeni əsərlərin oxunması xor ifaçılığının peşəkar istiqamətdə yüksəlməsinə gətirib çıxarmışdır. Digər tərəfdən təhlil olunan əsərlərdə xor janrları ilə yanaşı sintetik janrların da iştirak etməsi simfonik yaradıcılıq sahəsi ilə birgə, xor sənətinin də ön plana çıxmasını səciyyələndirmişdir.

Müasir Azərbaycan tarixində mühüm mərhələ sayılan müstəqillik dövrü siyasi-ictimai və sosial-mədəni hadisələrin mahiyyəti etibarilə xüsusi qeyd olunmalıdır. Müstəqilliyin əldə olunması üçün 1990-cı ildə respublikada baş verən xalq azadlıq hərəkatı böyük faciələrlə nəticələndi. 20 yanvar hadisələri ilə bağlı təhlilə cəlb olunmuş əsərlər sırasında həm iri formalar, həm də kiçik formalara rast gəlinir. Məsələn, bu sıradan əsərlərin iri formaya malik parlaq nümunələri kimi V.Adıgözəlovun "Qəm karvanı", O.Kazıminin "Şəhidlər" simfoniyası, A.Rzayevin "Bakı-90" simfoniyası, R.Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poemasını göstərə bilərik. Eləcə də kiçik formalı əsərlər sırasında S.Fərəcovun "Vətən dara düşəndə", E.Dadaşovanın "Alqış qeyrətinizə", F.Cavadovun "Qara yanvar", R.Əliyevin "Azadlığa gedən yollar" əsərlərinin adını çəkmək olar.

Sadalanan əsərlər sırasında həm simfonik, həm də xor janrları müşahidə olunmaqla yanaşı, hər iki növün vəhdətindən yaranan sintetik janrlar da yer almışdır.

XX əsrin ikinci yarısından etibarən bəstəkar yaradıcılığında vokal və simfonik janrların vəhdətindən doğan əsərlərin yaranması aktuallıq kəsb etməyə başlamışdır. Musiqi tarixində simfonik janrın daxilində vokaldan istifadə Vyana Klassik Məktəbinin son nümayəndəsi L.V.Bethovenin yaradıcılığından başlanğıc götürmüşdür. IX d-moll simfoniyasının finalında xordan istifadə edən bəstəkarın bu təcrübəsi musiqi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandı. Daha sonra bu təcrübədən digər bəstəkarlar da istifadə etdi. Vokal və simfonik janrların təmasının növbəti mərhələsi isə XX əsrin 50-ci illərindən başlanmışdır.

Vokal və simfonik musiqinin vəhdəti nəticəsində bir sıra sintetik janrlar meydana gəlmişdir. Xüsusilə xorun iştirak etdiyi simfoniyaları və vokal-simfonik poemaları qeyd etmək olar. Bu tip janrlarda vokal olaraq məhz xordan istifadə olunması isə bir sıra səbəblərlə bağlıdır. Xor musiqisinin kəsb etdiyi bədii-emosional, ictimai-sosial keyfiyyətlər onu xalqın obrazı ilə yaxınlaşdırmaqla yanaşı, tarixi hadisələri, xalqla sıx əlaqədə olan qəhrəmanları, lider və şəxsiyyətləri təcəssüm etdirən əsas ifadə vasitəsinə çevirmişdir. Operalarda, kantata və oratoriyalarda xalq obrazı məhz xorun vasitəsilə göstərilməklə yanaşı, böyük və qüdrətli bir qüvvəni, kütlə, birlik,

kollektivçilik ideyalarının təmsilçisi kimi çıxış edir. Təhlilə cəlb etdiyimiz əsərlərin hər birində məhz sadalanan mövzu və obrazlar yer almışdır.

Azərbaycan musiqisində vokalın iştirak etdiyi simfoniyaların yaranması 60-70-ci illərdən başlayaraq vüsət almışdır. Təhlilə cəlb etdiyimiz simfoniyalar isə əsas etibarilə XX əsrin 90-cı illərindən başlayaraq yaranmış əsərlərdir ki, bu əsərlərin də əsas mövzusunu məhz həmin tarixi dövrdə Azərbaycanda baş verən hadisələr təşkil edir. Vokal-simfonik əsərlərdə xora, vokala verilən yer, onun tutduğu mövqe də məhz əsərin mövzusundan irəli gələrək müəyyənləşmiş olur. Xorun sintetik əsərlərdə mövqeyi əsas etibarilə onun daşıdığı obraz aləmi ilə bağlı olur. Xor səhnə əsərlərində, eləcə də iri həcmli janrlarda daha çox xalqın, birliyin, milli mübarizənin obrazını özündə təcəssüm etdirir.

Vokalın tətbiq olunduğu simfoniyanın yaranmasında göstərilən əsas səbəblərdən biri də əsərin ideya-obraz aləminin çatdırılmasında mətnin məzmunu konkretləşdirici, bədii-emosional gücünü artırıcı vasitə kimi çıxış etməsidir. Dissertasiya işində, təhlil olunan əsərlərin əksər hissəsində məhz bu cəhətin daha parlaq ifadəsini görmək mümkündür. Məsələn, O.Kazıminin "Şəhidlər" simfoniyasında, R.Qədimovanın "Sarı gəlin" balladasında, O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemində mətnin rolu bədii mahiyyət etibarilə musiqidən geri qalmır. Mətn bu əsərlərdə sadəcə süjet xətti, proqramlılıq kimi deyil, obrazın gerçəkləşməsində orkestrlə bərabər əsas ifadə vasitəsi kimi çıxış edir. Bu baxımdan R.Qədimovanın "Sarı gəlin" balladası daha parlaq misaldır. Burada mətnin məzmununa nəzər salsaq, müəyyən bir süjet xəttinin olmadığını görürük. Lakin onun bədii-emosional gücü dinləyiciyə baş verənləri anlatmaqda güclü bir ifadə vasitəsinə çevrilir. O.Kazıminin "Şəhidlər" simfoniyası 1990-cı ildə yazılmışdır. Simfoniyada Azərbaycan xalq şairi B.Vahabzadənin "Şəhidlər" poemasından müəyyən parçalar istifadə olunmuşdur. Əsərin tərkibinə nəzər salsaq, simfonik orkestrlə yanaşı bəstəkar xor və qiraətçidən də istifadə edir. Burada mətnin rolu sadəcə vokalın daxil olunması ilə deyil, həm də qiraətçinin iştirakı ilə səciyyələnir. Beləliklə bəstəkar sintezi sadəcə simfoniya və vokal arasında deyil, daha geniş anlamda-mətnin və musiqinin vəhdətində yaratmağa çalışır. Qiraətçinin söylədiyi parçalarda mətnin əsas məzmununu ifadə edən parçalar yer alır. Xorun ifasında səslənən parçalar isə əsərin emosional aləminin ifadəçisi kimi çıxış edir. Beləliklə simfoniyada xor, musiqinin emosional təsir qüvvəsini gücləndirən ifadə vasitəsi kimi çıxış edir. Bu hal simfoniyanın orta hissəsində xor və solistin ifasında səslənən "Lay-lay"da daha qabarıq şəkildə müşahidə olunur. Məzmunun daşıdığı faciə xətti bu lay-lay-

da daxildə boğulan fəryadı ifadə edir. Bununla belə yuxarıda qeyd etdiyimiz kimi, O.Kazıminin "Şəhidlər" simfoniyasında xor müəyyən məqamlarda ifadə vasitəsi kimi deyil, məhz əsərin əsas komponentlərindən biri kimi çıxış edir. Poemanın ayrı-ayrı parçaları qiraətçi tərəfindən söyləndiyi halda, simfoniyanın daxilində yer alan xor bədii-emosional ruhun gücləndirilməsində mühüm vasitə kimi tətbiq olunur.

O.Rəcəbovun Milli qəhrəman Çingiz Mustafayevə həsr olunan əsərində simfoniya və xor əsərin obraz-ideya aləminin açılmasında bərabərhüquqlu komponent kimi çıxış edir. Həmçinin xorun çıxışı əvvəldən sona qədər öz mövqeyini qoruyub saxlayır. Əsərin simfoniya-rekviyem adlandırılması burada xorun rolunu sanki vurğulamış olur. O.Rəcəbovun əsərini daha çox R.Mustafayevin vokal-simfonik poeması ilə müqayisə etmək olar. Çünki, simfonik orkestrin iştirak etməsinə baxmayaraq əsərin hər hansı bir bölməsi sırf orkestrə həvalə olunmamışdır. Lakin bütün bölmələrdə xorun iştirakı mütləq şəkildə həyata keçirilir. Hətta solistin ifası da orkestrlə bərabər, xor tərəfindən də müşayiət olunur. Digər tərəfdən əsərdə hissələrin bölünməsi simfoniyadan çox rekviyemə, oratoriyaya yaxındır. Beləliklə, O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemində simfoniya janrından çox rekviyemin əlamətləri qabarıq müşahidə olunur. Bu səbəbdən də xorun burada oynadığı rolun mahiyyəti instrumental parçalardan daha artıqdır. Burada vokalın üstünlüyü danılmazdır. Bu əsəri daha çox simfonikləşmiş vokal janrlar tipinə aid etmək olar. Çünki bu dönəmdə vokalın iştirak etdiyi simfoniyalarla yanaşı, vokal janrların simfonikləşməsi prosesi də gedirdi. Haqqında danışdığımız simfoniya-rekviyem simfonikləşmiş rekviyem kimi qiymətləndirilə bilər. Sadalanan əsərlər hər biri məhz XX əsrin ikinci yarısında yaranmışdır və onların sintetik janr əlamətləri nəinki kompozisiya quruluşunda, artıq adında bəlli olur. Qeyd olunan fikirdə də göstərildiyi kimi, bu əsərləri bir-biri ilə yalnız "simfoniya" sözü birləşdirir. Lakin təhlilə cəlb etdiyimiz əsərlər arasında əlaqələr bu sözlə yanaşı, həm də məzmun cəhətdən müəyyənləşir. Mözvu yaxınlığı kompozisiyaların obraz-ifadə vasitələrinin mövqeyində, tətbiqində və istifadə üsullarında da ümumiləşdirmələr aparmağa imkan verir. Məsələn, yuxarıda sadalanan əsərlərin hər birində xor aparıcı mövqe daşıyır və xalqın obrazını səciyyələndirir.

**1.2. "İri həcmli vokal-simfonik əsərlərdə xorun müxtəlif janrlarda istifadəsi"** adlanır. Bu yarımfəsildə Ramiz Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması, Oqtay Rəcəbovun "Çingiz" simfoniya-rekviyemi və Rəna Qədimovanın xor və simfonik orkestr üçün balladası bilavasitə təhlil olunur.

Keçən əsrin 90-cı illərində baş verən qanlı hadisələr xalqın tarixində inqilabi əhəmiyyətə malik rol oynamışdır. Bu mövzunun ədəbiyyatda və incəsənətdə işıqlandırılması özünü çox gözlətməmiş və bu işdə bəstəkarlarımız da fəal iştirak etmişdir. Qanlı yanvar faciəsi əksər bəstəkarlarımızın, o cümlədən A.Rzayevin «Bakı-90», C.Hacıyevin «20 yanvar» VI simfoniyası, «Şəhidlər» VII simfoniyası, A.Mirzəyevin "Yanvar mərsiyələri", A.Dadaşovun «Bu vətən ölmək bilməz», «And» kantatası və s. əsərlərində bədii təcəssümünü tapmışdır. Sərdar Fərəcovun «Matəm harayları» simfonik lövhəsi, Sevda İbrahimovanın «Vətən şəhidləri» kantatası, V.Adıgözəlovun «Qəm karvanı» oratoriyası, H.Xanməmmədovun solist və xalq çalğı alətləri orkestri üçün «Əlimdə sazım ağlar» poeması bütün Azərbaycan incəsənətində, eləcə də ədəbiyyatında bu müqəddəs mövzunun tərənnümü, artıq bu gün ənənəvi bir hal almışdır. Ötən əsrin 90-cı illərinin başlanğıcında isə yanvar faciəsinin təcəssümü Azərbaycan musiqisi tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. İstər iri miqyaslı, istərsə də kiçik həcmli əsərlərdə bəstəkarlarımız böyük emosional qüvvə ilə bu hadisənin yaratdığı duyğuları, qəlb haraylarını əks etdirmişlər.

Xor musiqisi sahəsində qiymətli əsərlər müəllifi R.Mustafayevin xor, solist və simfonik orkestr üçün nəzərdə tutulmuş "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması 1992-ci ildə yazılmışdır. Əsərin mətni Məmməd İsmayıla məxsusdur. Əsər 1990-cı ildə Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində həlak olan şəhidlərə həsr olunmuşdur. Əsərin mətnində xalqın düşmənə qarşı mübariz ruhu və nifrəti, qəzəbi ifadə olunur. Bu baxımdan musiqidə qəhrəmanlıq, mübarizə, hiddət və iradə kimi hisslər tərənnüm olunur. Melodiyada marşvarilik, kəskin punktirli ritmlər, sərt intonasiyalar üstünlük təşkil edir.

Əsərdə üç hissəlilik hiss olunsa da, burada ənənəvi repriz müşahidə edilmir. Bəstəkar vahid kompozisiyanı leytmövzunun bütün əsər boyu variantlı şəkildə işlənməsi ilə təmin edir. Bununla da repriza mövzunun və ya müəyyən parçanın təkrarlanması ilə deyil, əsas mövzunun bir sıra elementlərinin vurğulanması, eyni ritmik quruluşun tətbiqi ilə əldə olunur.

13 xanəlik orkestr girişində müşahidə etdiyimiz mövzu bütün əsər boyu rast gəlinməsə də, onun motivləri üzərində qurulan orkestr keçidlərində xatırlanır. Eləcə də bu mövzu onun ardınca səslənən 4 səsli qarışıq xorun Bas və Alt partiyalarında yenidən eşidilir. Qeyd etmək lazımdır ki, əsərdə xorun mövqeyi daha güclüdür. Solist əsərin sonunda kiçik bir parça ilə çıxış edir və bu mövzu yalnız bir dəfə səslənir. Orkestr isə burada daha çox xoru müşayiət edir. Beləliklə, söyləmək olar ki, R.Mustafayevin vokal-

simfonik poeması daha çox xor əsəri kimi təqdim olunur. Yaradıcılığında xor musiqisinə geniş yer vermiş bəstəkar burada da öz prinsiplərinə sadiq qalaraq xoru ön plana çıxarmışdır.

Əsərdə vokalın iştirak etmədiyi orkestr keçidləri və giriş də xüsusi qeyd olunmalıdır. Belə ki, girişin mövzusu və bir sıra orkestr keçidləri musiqi məzmunun təşkilində, obrazın təqdimatında, eləcə də kompozisiyanın strukturunda mühüm rol oynamışdır. Məsələn, reprizanın vurğulanması ilk növbədə orkestrdə baş verir. Girişin mövzusu isə daha sonra bir sıra instrumental keçidlərdə dəfələrlə rast gəlinir. Bu fikri giriş haqqında da söyləmək olar.

Vokal-simfonik poemanın poetik məzmununda bir sıra motivlər bütün əsər boyu leytmotiv funksiyası daşıyır. Məsələn, "qan" kəlməsinin ilk cümlələrdən başlayaraq dəfələrlə vurğulanmasını göstərmək olar. Bundan başqa isə bütün məzmunun əsas ideyası xalqın öz azadlığını qazanması üçün verdiyi qurbanların qisasının yerdə qalmayacağı fikridir. Bu fikir kodada daha çox səslənir və onunla da bütün kompozisiya sona yetir.

Təhlilə cəlb olunan növbəti əsər Oqtay Rəcəbovun "Çingiz" simfoniya-rekviyemidir. Müasir dövrdə Azərbaycan musiqisinin iri həcmli əsərləri içərisində O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemini qeyd etmək olar. Çox hissəli əsərdə bəstəkar xor sənətinin bu qolunun ənənələrini özünəməxsus şəkildə tərənnüm edir. Burada onun musiqi səsləri vasitəsilə yaratdığı mövzu və obrazlara fərdi fəlsəfi baxışları ifadə olunur. Simfoniya-rekviyem insan qəlbinin zəngin qatlarını, qəhrəmanlığını, fədakarlığını, doğma torpağa olan hədsiz sevgisini və işıqlı gələcəyin qələbəsinə olan inamını təcəssüm etdirir. Bu, xalqın qəhrəman oğlunun həyat epopeyasıdır. Əsərdə epos və dramın xüsusiyyətləri, dərin lirika və parlaq həyat səhnələri ilə dolu xalq-məişət mövzuları vəhdət təşkil edir. Musiqidə milli incəsənətin son yüzillikdə əldə etdiyi ən zərif boyaları öz əksini tapmışdır. Bu əsər Azərbaycan xor musiqisinin müasir dövrdə parlaq nümunəsi kimi özündə XIX əsr bəstəkarlıq ənənələri ilə şifahi ənənəli xalq professional musiqisinin dərin qatlarını ifadə edir. Bunu daha çox əsərin lad-intonasiya və harmonik quruluşunda görmək mümkündür. Ona xüsusi orijinallığı isə bəstəkarın özünəməxsus forma traktovkası verir. O.Rəcəbov əsərdə ən müxtəlif quruluşlara müraciət edir. Orkestrdən ustalıqla istifadə edən bəstəkar onun bütün imkanlarını parlaq nümayiş etdirməyə nail olmuşdur.

Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılmış Xocalı soyqırımına həsr olunmuş "Sarı gəlin" balladası xor və orkestr üçün nəzərdə tutulmuşdur. 1992-ci ildə Xocalıda erməni terrorçuları tərəfindən törədilmiş

qırğın tarixə soyqırım kimi daxil olmuşdur. Əsrlərlə xalqımıza qarşı müxtəlif qırğınlar, təxribatlar törətmiş ermənilər 20 ildən çoxdur ki, ərazilərimizi işğal edərək mülki əhaliyə amansız qəddarlıq nümayiş etdirmişlər. Bu faciələrə həsr olunmuş müxtəlif məzmunlu və janrlı əsərlər yaranmış və yaranmaqda davam edir.

Belə əsərlərdən biri kimi musiqi ictimaiyyətinə təqdim olunmuş "Sarı gəlin" balladası maraqlı əsərlərlə musiqi ictimaiyyətinin rəğbətini qazanmış müasir Azərbaycan bəstəkarı Rəna Qədimova tərəfindən bəstələnmişdir. Əsərin mətni Şahrun Süleymanovaya məxsusdur. Əsərin mövzusu müasir Azərbaycan tarixi, mədəniyyəti, incəsənəti üçün olduqca aktualdır. Müəlliflər əsərin aktuallığını, onun tarixi və bədii əhəmiyyətini artıran daha bir faktdan da istifadə etmişlər. Belə ki, adından da göründüyü kimi əsər Azərbaycan xalq mahnısı "Sarı gəlin"in adı ilə təqdim olunmuşdur. Son illərdə işğalçı erməni milləti tərəfindən mənimsənilməyə çalışan növbəti mənəvi sərvətimiz olan xalq mahnısının bir daha məhz Azərbaycana məxsus olduğunu göstərmək üçün uğurlu addım hesab etmək olar.

Balladanın bölmələri arasında kəskin obraz təzadlılığı müşahidə olunmur. Bəstəkar təzadı daha çox bir obrazın-xalqın gah hüznlü, gah faciəvi, gah da üsyankar fəryadları ilə yaratmağa çalışmışdır. Xorun mövqeyi əsərdə orkestrə nisbətən daha üstündür. Əsər boyu əsas mövzunun təqdimatı məhz xora həvalə olunur. Lakin orkestr burada müşayiətçi kimi deyil, bu keçidlər arasında bağlayıcı funksiya daşıyan mühüm rola malikdir. Digər tərəfdən dissonans səslənmənin məhz orkestrə həvalə edilməsi əsərdə zülmün, qəddarlığın obrazını daşıması ilə səciyyələnir.

Xocalı soyqırımının Azərbaycan xalqına və bütün Türk dünyasına deyil, bütün bəşər dəyərlərinə vurduğu zərbə, onun dərinliyini daha əsrlər sonra çözülməsinə zəmin yaradacaqdır. Bu mövzunun seçilməsi və onunla paralel taleyi paylaşan "Sarı gəlin" xalq mahnısı ilə əlaqələndirilməsi əsər müəlliflərinin cəsarətli və diqqətəlayiq addımı kimi qiymətləndirilə bilər. Bir əsərin daxilində iki mühüm problemin işıqlandırılması və Azərbaycan reallığının vurğulanması "Sarı gəlin" balladasını hələ bir çox gələcək nəsillər üçün aktual edəcəkdir.

Hər üç əsərin janrı simfonik musiqinin tərkibinə daxil olsa da, bəstəkarlar xordan istifadə etmişdir. R.Mustafayevin poemasında xor əsas ideyanın daşıyıcısı kimi çıxış edir. Əvvəldən sona qədər məzmunun ifadəçisinə çevrilən xor həm də əsas obraz, xalqın obrazı kimi təcəssüm olunur. O.Rəcəbovun simfoniya-rekviyemində əvvəldə qeyd etdiyimiz kimi rekviyem janrının əlamətləri daha çox büruzə verir. Burada xor rekviyem

janrının əsas komponenti kimi çıxış edir. R.Qədimovanın balladasında xorun mövqeyi ballada janrının vokal növünün ifadə vasitəsi kimi, yəni nəqledici rolunda göstərilir. Xor əsərdə böyük faciənin nəqledicisi kimi əsas məzmunun çatdırılmasında mühüm rol oynayır. Əsərin zəngin orkestr koloriti, simfonizm cəhətlərinin vurğulanması onun simfonik janr kimi qavranılmasına təkan verir. Əsərin məzmununda instrumental balladanın əlamətləri daha qabarıq göstərildiyi üçün xor vokal janrın atributu kimi deyil, simfonik musiqiyə vokalın daxil edilməsi kimi qəbul olunur. Beləliklə, hər üç əsərdə xor əsas ideyanın daşıyıcısı, obrazın təcəssümü, məzmunun çatdırılmasında əsas ifadə vasitəsi kimi çıxış edir.

Dissertasiyanın **II fəsli "XXI əsrin əvvəllərində yaranmış tarixi mövzulu xor əsərlərinin səciyyəvi xüsusiyyətləri"** adlanır. Bu fəsil də **iki** yarımfəsildən ibarətdir. **2.1. "Müxtəlif tarixi hadisələrlə bağlı kiçik həcmli xor əsərlərinin meydana gəlməsi"** adlanır. Burada əsas diqqət kiçik həcmli əsərlərin təhlilinə ayrılır. Əsərlərin hər birində xorun aparıcı mövqeyini görmək mümkündür. Onlardan bir qismi qəhrəmanlıq mövzularına, digərləri isə faciələrə həsr olunmuşdur. O cümlədən E.Dadaşovanın a capella xor üçün nəzərdə tutulmuş "Alqış qeyrətinizə" miniatürü, C.Abbasovun "Mərdlik" kantatası, Sərdar Fərəcovun 1990-cı ildə kişi xoru və piano üçün yazılmış "Vətən dara düşəndə" əsəri daha çox qəhrəmanlıq, mərdlik, igidlik xarakteri nümayiş etdirir. Bəstəkarlar bu xarakteri yaratmaq üçün xalq musiqi elementlərindən ustalıqla istifadə etmişlər. Məsələn, E.Dadaşovanın miniatüründə Heyratı muğamına yaxın quruluş, melodik və ritmik xüsusiyyətlər üstünlük təşkil edir. Y.İmanovun solist, xor və instrumental müşayiətlə "Ölümünlə yol açdın" kantatasında çahargah ladından istifadə olunur. C.Abbasovun kantatasında isə milli ruh müraciət olunan ədəbi mənbə ilə vurğulanmışdır. Burada Azərbaycan xalq dastanlarının istifadəsi əsərin müvafiq olaraq, aparıcı musiqi ifadə vasitələrinin melodikanın, tematizm, struktur baxımından xarakterini müəyyənləşdirmişdir. Bununla yanaşı bəstəkar, aşıq musiqi intonasiyalarından istifadə etməklə dastan ənənələrini vurğulamağa çalışmışdır. Əsərin musiqisi xalqın daxili gücünü, möhtəşəmliyini, doğma torpağın qəhrəman oğullarına inamını ifadə edir.

Qəhrəmanlıq və mübarizlik nümayiş etdirən əsərlərdən biri də S.Fərəcovun kişi xoru və piano üçün yazılmış "Vətən dara düşəndə" əsəridir. Şüştər ladının digər lad sistemləri ilə vəhdət təşkil etməsi əsərə maraqlı harmonik və melodik boyalar vermişdir.

A.Ağasiyevin xor və instrumental müşayiət üçün "Bu qəm sənə sığmaz dünya" kompozisiyası, Y.İmanovun solist, xor və instrumental mü-

şayiətlə "Ölümünlə yol açdın" kantatası, F.Cavadovun "Qara yanvar" kompozisiyası, L.Vaynşteynin xor və müşayiət üçün nəzərdə tutulmuş "Sənin yazın gələr" kompozisiyası isə vətənin yaşadığı faciələrə həsr olunmuşdur. Bu əsərlərə daha çox lirik və həzin, kədər, qəm hissləri ifadə edən musiqi dili xarakterikdir.

Y.İmanovun solist, xor və instrumental müşayiətlə "Ölümünlə yol açdın" kantatası faciəvi mövzuya həsr olunmasına baxmayaraq, marş ruhundadır, Musiqi cəsur, məğrur xarakterə malik olub, xalq melosunun təbiətindən gələn zəngin intonasiya quruluşuna malikdir. Ondan fərqli olaraq F.Cavadovun "Qara yanvar" kompozisiyası kədərli və sərt xarakter daşıyır. Bununla belə Şur ladının tətbiqi kompozisiyaya mərdlik, qəhrəmanlıq ruhu yaradır. L.Vaynşteynin xor və müşayiət üçün nəzərdə tutulmuş "Sənin yazın gələr" kompozisiyası isə dərin səmimi və lirik hisslərə malikdir. Burada lirika üstünlük təşkil edir.

Hər bir bəstəkar müraciət etdiyi mövzunu özünəməxsus şəkildə, orijinal boyalarla, ifadə vasitələri, forma və struktur quruluşu ilə təcəssüm etdirərək xorun mövqeyini müxtəlif üsullarla vurğulamağa çalışmış və bununla da 80-90-cı illərin musiqi xəzinəsini maraqlı və diqqətəlayiq musiqi tabloları ilə zənginləşdirməyə nail olmuşlar.

**2.2. "Tarixi şəxsiyyətlərə həsr olunmuş iri həcmli xor əsərləri"** adlanır. Bu yarımfəsildə O.Rəcəbovun "Heydər" oratoriyasının geniş nəzəri təhlili verilmişdir. Azərbaycan xalqının müasir tarixində müstəsna mövqeyə malik, müstəqil Azərbaycan dövlətinin memarı, böyük şəxsiyyət, ulu öndər Heydər Əliyevin parlaq şəxsiyyəti, əvəzolunmaz fəaliyyəti ədəbiyyat və incəsənətdə monumental əsərlərin yaranmasına səbəb olmuşdur. Onun obrazı bir sıra əsərlərdə müxtəlif səpgidə tərənnüm olunmuş, məhsuldar fəaliyyəti musiqi, boya və poeziyanın vasitəsilə diqqət mərkəzinə çəkilmişdir. Azərbaycan bəstəkarlarının Heydər Əliyevə həsr olunmuş əsərləri sırasında C.Hacıyevin 8 saylı simfoniyası, A.Məlikovun 8 saylı "Əbədiyyət" simfoniyası, V.Adıgözəlovun "Azərbaycan" kantatası, R.Mustafayevin "Mənim müasirim", "İnam" oratoriyaları, "Haqq səndədir" kantatası, O.Rəcəbovun "Heydər" oratoriyası, R.Mirişlinin "Məşəl kimi yanan ürək" odası, S.Fərəcovun "Böyük vətəndaş haqqında oda", V.Allahverdiyevin "Ömür yolu" simfonik poeması və çoxsaylı mahnılar, romanslar yer alır.

Azərbaycanın tanınmış bəstəkarı Oqtay Rəcəbovun 2013-cü ildə musiqi ictimaiyyətinə təqdim etdiyi "Heydər" oratoriyası ulu öndər, xalqın müdrik rəhbəri, Müstəqil Azərbaycan Dövlətinin yaradıcısı Heydər Əliyevə həsr olunmuşdur. Oratoriyanın mətni Rafael Hüseynova məxsusdur. 6

hissədən ibarət oratoriya proqramlıdır və hər hissənin özünəməxsus adı vardır. Bu adlar hər biri dahi rəhbərin şəxsiyyətinin müxtəlif məziyyətlərini səciyyələndirir. "Giriş" adlanan birinci hissədə ulu öndərin obrazını bəstəkar faqotun ifasında müdrik, düşüncəli xarakterli "Rast" intonasiyaları üzərində qurulan mövzu ilə təqdim edir. 4 xanəlik bu motiv iki dəfə təkrar olunaraq obrazın ilk təəssürat rolunu oynayan mövqeyini vurğulayır. Giriş nömrəsinin tərtibatı bir qədər F.Əmirovun, Niyazinin simfonik muğamlarını xatırladır və musiqiyə reçitativ-deklomasiyalı xarakter verir. Onu mis nəfəslilər, fortepiano və simlilərin bir qismi sakit tremolalarla müşayiət edərək, sanki musiqinin daxilində gizlənən həyəcanı ifadə edir.

İkinci nömrə "Vəfa dərsi" adlanır. Yenidən *Andante* tempi qeyd olunmuşdur, lakin ilk baxışdan bu bölmənin fərqli fakturaya sahib olduğunu görmək mümkündür. Violonçelin və faqotun müşaiyətində verilən xalq musiqi janrlarına yaxın melodiya müxtəlif alətlərin ifasında paylanmış motivlərdən təşkil olunmuşdur. Bu motivlər klarnet, fleyta, valtorna və skripkalarda eşidilir. 32-lik ölçülərdə verilən motivlər xalq melodiyalarına xas melizmləri xatırladır. Bu girişdən sonra (1) rəqəmindən solistin partiyası təqdim olunur. Nömrənin əvvəlində 6/8 ölçüsü qeyd olunmasına baxmayaraq solistin melodiyası 3/4 metrinə uyğun qruplaşmışdır. Xalq musiqi janrlarında iki ölçünün eyni vaxtda tətbiqi olduqca xarakterikdir. Milli intonasiyalara köklənən bu nömrədə bəstəkar bu ritmik qruplaşma prinsipindən yararlanmışdır. Solistin partiyası "Şüştər" intonasiyalarına əsaslanan melodiya ilə təqdim olunur.

Oratoriyanın üçüncü hissəsi "Sədaqət dərsi" adlanır. Bu hissə reprizli 3 hissəli formada yazılmışdır. Bəstəkar bu hissədə iki tip ifadə tərzindən istifadə etmişdir. Kənar hissələr reçitativ-deklomasiyalı, orta hissə isə polifonik fakturalı quruluşa malikdir. Reçitativ-deklomasiya ifadə tərzi ilk iki xanədə orkestr və xorun ifasında verilən kiçik motivdə tətbiq olunur. Bu motiv muğam ifaçılıq ənənələrinə əsaslanan giriş intonasiyalarını özündə əks etdirir. Bu intonasiyalar Şur muğamının bərdaştına yaxındır. Oratoriyanın IV hissəsi "Türkiyəylə Azərbaycan" adlanır. Maraqlıdır ki, bəstəkar ulu öndərin çoxcəhətli xarakterini yaradarkən onun bu iki dövlət arasında mövcud olan çoxəsrlik münasibətlərə yeni həyat verdiyini, iki türk ölkəsi arasında olan bağlılığın daha da güclənməsinə yönələn siyasətini də göstərməyi qərara almışdır.

"Bir millət – iki dövlət" deyən Heydər Əliyev bu fikirlə Azərbaycan və Türkiyənin bir-birinə hansı köklərlə və nə qədər bağlı olduğunu bütün dünyaya sübut etmiş və iki ölkə arasında olan sıx dostluq və əməkdaşlıq

üzərində qurulan münasibətlərə doğmalıq, səmimiyyət gətirmişdir. Əsrlərlə həm sevincli, həm də çətin günlərində bir-birinə dəstək olan iki xalq arasında bu əlaqələrin daha da güclənməsi Heydər Əliyevin hakimiyyəti dövründə geniş vüsət almışdır. Müasir dövrdə bu uğurlu siyasətin parlaq şəkildə davam etdirilməsi dövlət başçısı İlham Əliyev tərəfindən də aparılır.

Oratoriyada iki türk dövləti arasında dostluq əlaqələrinin işıqlandırılması əsərin tarixi mahiyyətini artırmış olur. Bu hissədə bəstəkar yenidən Şüştər intonasiyalarına üstünlük verir, lakin əvvəlkinə nisbətən musiqinin xarakteri bir qədər dramatik boyalar almışdır. Növbəti V hissə "Qəmli vokaliz" adlanır. Hissənin adından da məlum olduğu kimi burada ulu öndərin vəfatı ilə əlaqədar ümumxalq kədəri ifadə olunur. Həcminə görə oratoriyanın ən kiçik hissəsi reprizli sadə 3 hissəli formada yazılmışdır. Kiçik olmasına baxmayaraq musiqinin ifadə etdiyi emosional əhval-ruhiyyə xalqın öz rəhbərinə olan məhəbbətini, onun ölümündən təsirlənən dərin kədər və matəm hissini özündə təcəssüm etdirə bilmişdir. Xorun vokalizi demək olar ki, bütün orkestr tərəfindən dəstəklənərək ümumxalq kədərini daha qabarıq şəkildə təqdim etməyə yönəlmişdir. Sonuncu hissə oratoriyada ən böyük həcmə malikdir, "Ulu öndər" adlanır. Özündə ruh yüksəkliyi, bir qədər mərdlik, cəsarət ifadə edən bu hissədə dahi rəhbərin obrazı daha çox xalq qəhrəmanı, igid sərkərdə kimi tərənnüm olunur. Musiqidə eşidilən marş ritmləri, təntənəli major tonları bu hissəni oratoriyada ən nikbin nömrələrdən biri kimi qiymətləndirməyə əsas verir.

Bu hissədə bəstəkar ulu öndərin obrazını ümumiləşdirmiş və hərtərəfli səciyyələndirilmiş şəkildə təqdim etmişdir. Lakin oratoriyanın hər bir hissəsi dahi rəhbərin çoxcəhətli şəxsiyyətinin ən müxtəlif və parlaq tərəflərini musiqinin dili ilə canlandırmağa yönələn məqsədə xidmət edir. Bu məqsədin həyata keçirilməsində həm xor, həm də orkestrin imkanlarından geniş şəkildə, böyük ustalıqla istifadə edilmişdir. Bəstəkar, müxtəlif tonallıqların milli lad intonasiyalarla qovuşması ilə xüsusi tembr və obraz-emosional rəngarənglik yaranmasına nail olmuşdur.

XX əsrin sonlarında Azərbaycanda baş verən tarixi-siyasi hadisələr öz əksini incəsənətin bütün növləri kimi, musiqidə də tapmışdır. Klassik musiqidə müşahidə olunan müxtəlif istiqamətli təmayüllər, inkişaf və durğunluq, yeni ideyaların və mövzuların tərənnümü, sərhədləri aşmaq, ənənələri pozmaq, müxtəlif janrların sintezi bu dövrün səciyyəvi xüsusiyyətləri kimi özünü göstərmişdir. Xüsusilə 90-cı illərdə yaranan bir sıra əsərlərdə sadalanan bu xüsusiyyətlər özünü bariz şəkildə göstərmişdir. Qeyd olunan dövr Azərbaycan xalqının tarixində mühüm mərhələ kimi qiymətləndirilir.

Bu dövrdə yaranan əsərlərin mövzusu baş verən ictimai-siyasi hadisələrə, xalqın yaşadığı ağır faciələrə həsr olunmaqla yanaşı, XX əsrin ikinci yarısında bəstəkar yaradıcılığı üçün xarakterik olan yeni ifadə vasitələri, üslub və təmayülləri ilə də səciyyəvidir.

Beləliklə aparılan təhlillər **nəticə**sində aşağıdakı müddəalar əldə olunmuşdur:

- Təhlil olunan əsərlərin həsr olunduğu mövzular Azərbaycan tarixinin ən mühüm hadisələrini özündə əks etdirir. Burada xalqın taleyində ağır iz qoymuş 20 yanvar hadisələri, eləcə də işğal altında olan torpaqlarımızda törədilən faciələrə həsr olunmuş əsərlər əsas tədqiqat obyekti kimi təhlilə cəlb olunmuşdur.
- Təhlilə cəlb edilən əsərlərdən R.Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması, R.Qədimovanın "Sarı gəlin" balladası, O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemi XX əsrin II yarısında bəstəkar yaradıcılığında vüsət almış sintetik janrlar sırasına daxildir. Sintetik janrların bəstəkar yaradıcılığında təcəssümü müxtəlif üsullarla baş verir. Sadalanan əsərlərdə əsas meyar kimi vokal və simfonik musiqi janrlarının bir sturktur daxilində vəhdəti götürülmüşdür.
- Təhlil zamanı sintetik janrlarda simfonizm əlamətləri ilə yanaşı, vokal musiqinin daxil olunması ilk növbədə əsərin bədii ideya-obraz aləmi, həsr olunduğu mövzu ilə bağlıdır və bu səbəbdən irəli gələrək xorun daşıdığı mövqe əsas etibarilə xalqın, kütlənin, birliyin təcəssümüdür. Xor musiqisinin xalq obrazı ilə əlaqələndirilməsi musiqili səhnə əsərlərində ənənəvi haldır. Bu səciyyələndirmə vokal-simfonik əsərlərdə də uğurla tətbiq olunmuşdur. Xüsusilə O.Kazıminin "Şəhidlər" simfoniyasında, R.Qədimovanın "Sarı gəlin" balladasında, eləcə də O.Rəcəbovun "Çingiz" simfoniya-rekviyemində xor məhz xalqın mövqeyini ifadə edən obraz kimi əhəmiyyət daşıyır.
- Vokal simfoniyanın yaranmasında göstərilən əsas səbəblərdən biri də əsərin ideya-obraz aləminin çatdırılmasında mətnin məzmunu konkretləşdirici, bədii-emosional gücünü artırıcı vasitə kimi çıxış etməsidir.
- Təhlilə cəlb olunmuş əsərlərdən V.Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası, R.Mustafayevin "Bu qan yerdə qalan deyil" vokal-simfonik poeması, O.Kazıminin "Şəhidlər" simfoniyası, E.Dadaşovanın "Alqış qeyrətinizə", F.Cavadovun "Qara yanvar", A.Ağasıyevin "Bu qəm sənə sığmaz dünya", S.Fərəcovun "Vətən dara düşəndə" 1990-cı ildə baş vermiş 20 yanvar hadisələrinə həsr olunmuşdur. Bu əsərlərdə xor xalqın yaşadığı ağır müsibətdə birləşərək mübarizəyə qalxmasını təcəssüm edən əsas ifadə vasitəsi kimi çıxış edir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**

1. Leonid Vaynşteynin “Sənin yazın gələr” əsərinin dirijorluq təhlili. // “Konservatoriya” elmi jurnalı. Bakı, 2013. №1 (19). s. 138-143.

2. Azərbaycan xor sənətinin inkişafında Üzeyir Hacıbəylinin rolu. / “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”. XIII Beynəlxalq elmi-praktiki konfrans Bakı, 2014. s. 113-114.

3. İnsanın Vatansever Ruhta Büyümesinde Tarihi Eserlerin Rolü. / “I Uluslararası müzik ve dans kongresi”. Türkiyə, 2015. s. 457-459.

4. Y.İmanovun musiqisi M.Məhərrəmovun sözlərinə solist, xor və instrumental müşayiət üçün “Siz yol açdınız” əsərinin təhlili. // “Uluslararası Müzikoloji Dergisi (cilt III, sayı 2). Türkiye, 2015. s. 1052-1056.

5. Rəna Qədimovanın xor və orkestr üçün “Sarı gəlin” balladası. // “Konservatoriya” elmi jurnalı. Bakı, 2016. [1]1 (31). s. 69-72.

6. Cəlal Abbasovun müşayiətsiz qarışıq xor üçün “Mərdlik” kantatasının səciyyəvi xüsusiyyətləri. / “Doktorantların və gənc tədqiqatçıların XX Respublika elmi konfransı”. Bakı, 2016. II cild, s. 536-538

7. Sərdar Fərəcov “Vətən dara düşəndə”. // “Musiqi dünyası” jurnalı. Bakı, 2016. № 2/67 s. 117-120.

8. Oqtay Rəcəbov “Heydər” oratoriyası. // “Mədəniyyət.az” jurnalı. Bakı, 2016. №10(308). s. 64-66.

9. R.Mustafayev “Bu qan yerdə qalan deyil” vokal simfonik poeması. // "Harmony" beynəlxalq musiqi-kulturoloji jurnalı. Bakı, 2014. №13. http://harmony.musigi-dunya.az/RUS/archivereader.asp?txtid=649&s=1&iss=25.

10. Müstəqillik dövründə yaranmış tarixi mövzulu xor əsərlərində janrların sintezi məsələləri. // “Musiqi dünyası” jurnalı. Bakı, 2016. № 3/68. s. 62-64.

**Вугар Бахтияр оглы Гумбатов**

## Хоровые произведения исторической тематики азербайджанских композиторов в период независимости

## РЕЗЮМЕ

Диссертационная работа посвящается хоровым произведениям исторической тематики, созданным в период независимости. События, происходящие в Азербайджане в конце XX века, возрождение национального духа в сознании народа, усиление борьбы за свободу, попытки возвращения молодого поколения к историческому прошлому, национальным обычаям и традициям, проявились во многих областях искусства. В хоровых произведениях преобладают темы именно с героическим, патриотическим и боевым духом. Тема представленной диссертационной работы посвящена анализу произведений такого типа.

Диссертационная работа состоит из вступления, двух глав, четырех разделов, заключения и списка использованной литературы. **I глава** называется **«Жанровые особенности хоровых произведений, посвященных историческим темам»** состоит из **двух** разделов. **1.1.** называется **«Взаимосвязь формы и жанра хоровых произведений, созданных в первые поры периода независимости».** На примере некоторых произведений, привлеченных к анализу, здесь исследуется особенности формы и жанра симфонических произведений азербайджанских композиторов, в творчество которых входит вокальная музыка. Изучаются исторические этапы становления синтетических жанров и основные стороны выражения этих жанров в национальном искусстве. **1.2.** называется **«Использование хора в разных жанрах в крупных вокально-симфонических произведениях»**. В данном разделе непосредственно анализируются вокально-симфоническая поэма Рамиза Мустафаева «Bu qan yerdə qalan deyil (Пролитая кровь не останется без наказно)», симфония-реквием Огтая Раджабова «Чингиз» и баллада Рены Гадимовой для хора и симфонического оркестра.

**II глава** диссертации называется **«Характерные особенности хоровых произведений на исторические темы, созданных в начале**

**XXI века»**. **2.1.** называется **«Создание малых по форме хоровых произведений, связанных с разными историческими событиями»**. Здесь основное внимание уделяется анализу произведений малой формы. **2.2.** называется **«Крупные по форме хоровые произведения, посвященные историческим личностям»**. В данном разделе представляется широкий теоретический анализ оратории О.Раджабова «Гейдар».

В **заключении** даются выводы и обобщения проведенного научного исследования.

**Vugar Bakhtiyar Humbatov**

## Choral pieces of historical subject f the Azerbaijani composer in a period of independency


## SUMMARY

This is research is dedicated to the choral pieces of historical subject created in a period of independency. The events happened in Azerbaijan at the end of the XX century, regeneration of national spirit in mind of people, strengthening of fight for freedom, attempts of young generation to get round to historical back, to national customs and traditions, have revealed in many fields of art. The subjects with namely heroic, patriotic and fighting spirit prevailed in the choral pieces. The subject of the presented thesis research is dedicated to the analysis of this type of works.

Thesis research is consisted of the introduction, two sections, conclusion and list of references. **I section** is called **"Genre peculiarities of the choral pieces dedicated to the historical subjects"**. This section is consisted of **two** sub-sections. **1.1.** is called **"Relations of the forms and genres of the choral pieces, created in the first period of independency"**. In an example of some works involved to analysis, it is studied here the peculiarities of form and genre of symphonic music of the Azerbaijani composers whose works include vocal music. It is learned the historical stages of forming of the synthetic genres and main sides of expression of these genres in national art. **1.2.** is called **"Usage of chorus in the different genres in vocally and symphonic music of a big volume"**. In this sub-section we analyses in particular the symphonic poem of Ramiz Mustafayev "Bu qan yerdə qalmaz", symphony-requiem of Ogtay Rajabov "Chingiz" and ballade of Rana Gadimova for chorus and symphonic orchestra.

**II section** is called **"Characteristic features of the chorus pieces of historical subject, created at the end of the XXI century"**. **2.1.** is called **"Raising of the chorus pieces of small volume related to many historical persons"**. Here the main attention is drawn to an analysis of small volume. **2.2.** is called **"Chorus pieces of is small volume related to historical works"**. In this sub-section the oratory of O.Rajabov "Heydar" is presented for wide scientific analyses.

In the part of conclusion the research is summed up the added scientific results are presented.

Çapa imzalanıb: 14.04.2017.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**
**имени УЗЕЙРА ГАДЖИБЕЙЛИ**

***На правах рукописи***

**ВУГАР БАХТИЯР оглы ГУМБАТОВ**

# ХОРОВЫЕ ПРОИЗВЕДЕНИЯ ИСТОРИЧЕСКОЙ ТЕМАТИКИ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ В ПЕРИОД НЕЗАВИСИМОСТИ

6213.01 – Музыкальное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2017**